# MÜNDƏRİCAT


Proloq. Yay semestri ........................................................ 7

Fəsil 1. Ramatda inqilab ................................................ 21

Fəsil 2. Eyvandakı qadın................................................ 28

Fəsil 3. Mister Robinsonun üzə çıxması .......................... 38

Fəsil 4. Səyahətdən qayıdış............................................. 51

Fəsil 5. Midoubank məktəbindən məktublar ................... 64

Fəsil 6. Küləkdə saman çöpü ......................................... 71

Fəsil 7. Qətl..................................................................... 81

Fəsil 8. Göyərçinlər arasında pişik.................................. 93

Fəsil 9. Fantastik hekayə............................................... 103

Fəsil 10. Müzakirə ........................................................ 113

Fəsil 11. Köhnə lampanın əvəzinə yeni lampa ............. 119

Fəsil 12. Qəza................................................................ 130

Fəsil 13. Miss Çedvik yuxuya gedə bilmir .................... 139

Fəsil 14. Qatil yenidən üzə çıxır ................................... 146

Fəsil 15. İdman pavilyonunun sirri ............................... 152

Fəsil 16. Ələddinin xəzinəsi.......................................... 165

Fəsil 17. Müzakirə ........................................................ 176

Fəsil 18. Müzakirə davam edir....................................... 184
Fəsil 19. Söhbət............................................................. 192
Fəsil 20. Söhbətin nəticələri........................................... 199
Fəsil 21. Antalyada insident........................................... 208
Fəsil 22. Kartların açılması............................................ 210
Fəsil 23. Puaro izah edir................................................. 224
Fəsil 24. Miras ............................................................... 232

## P r o l o q

# YAY SEMESTRİ

## 1

“Midoubank” məktəbinin yay semestrinin ilk günü idi. Günəş binanın qarşısındakı meydançanı işıqlandırırdı. Giriş qapısı qonaqpərvərcəsinə taybatay açılmışdı. Miss Vansittart qapının ağzında dayanmışdı; səliqə ilə daranmış gözəl saçları çiyinlərinə dağılmışdı. Bəzi valideynlər cavab vermək səlahiyyətinin miss Vulstrouya aid olduğunu bilmədiyindən ona müraciət edirdilər.

Miss Vansittartın yanında dayanan isə onun tamamilə əksi sayıla bilən miss Çedvik idi. “Midoubank”ın əksər sakinləri onu yaxşı tanıyırdı. Hətta məktəbi onsuz, sadəcə olaraq, təsəvvür belə edə bilməzdilər. Miss Vansittart da, miss Çedvik də pedaqoq idi. Gözlük taxmış miss Çedvik zövqsüz geyinmişdi, tələffüzü aydın deyildi, lakin onu möhtəşəm riyaziyyatçı hesab edirdilər.

Miss Vansittartın mehribancasına və bir qədər təkəbbürlə dediyi təbrik sözləri və ibarəli ifadələri isti havada aydın eşidilirdi:

– Oooo, miss Arnold, necəsiniz? Liliya, Yunanıstan səfəri xoşunuza gəldimi? Möhtəşəmdir, elə deyilmi? Siz, yəqin ki, çoxlu şəkillər çəkdirmisiniz?

– Bəli, bəli, ledi Qarnet, miss Vulstrou sizin məktubunuzu alıb və hər şeyi yoluna qoyacaq. Hər şey qaydasında olacaq…

– Miss Vird, siz necəsiniz?.. Doğrudanmı? Bunu istəsəniz belə, inanmıram ki, miss Vulstrou bu məsələni sizinlə müzakirə etsin…

– Pamela, yataq otağınıza gedin…

– Oooo… Bəli, ledi Violet, bu yaz hava çox bərbad keçdi! Oğlunuzdur? Adın nədir? Hektor? Nə qəşəng təyyarən var!..

– Madam, sizi görməyimə çox şadam! Əvvəldən bunu edə bilmədiyim üçün çox təəssüflənirəm… Lakin madmazel Vulstrou elə məşğul idi ki…

– Professor, hər vaxtınız xeyir! Sizin kifayət qədər yeni tapıntılarınız olduğuna qətiyyən şübhə etmirəm…

## 2

Miss Vulstrounun katibəsi Anna Şaplend birinci mərtəbədəki balaca otaqda makinada yazı yazırdı. Otuz yaşında olan bu qadın çox gözəl görünürdü: tünd qara saçları, idmançı bədəni var idi… Anna istədiyi zaman cəzbedici görünə bilirdi, lakin həyat ona öyrətmişdi ki, ətrafdakılara sadə və təvazökar insan təsiri bağışlamaq həm daha yaxşı nəticələr verir, həm də bir çox mürəkkəb vəziyyətdən qaçmağa kömək edir. İndi o, məşhur qadın məktəbinin kargüzarlıq işlərini böyük uğurla həyata keçirirdi.

Hərdənbir təmiz vərəqləri makinaya qoyaraq gözlərini pəncərədən çölə dikir, gələnləri diqqətlə nəzərdən keçirirdi.

– Aman Allahım, – miss Şaplend astadan dilləndi. – Mən İngiltərədə bu qədər sürücü olduğunu bilmirdim!

O, möhtəşəm “Rolls”un, arxasınca da balaca “Ostin”in binaya yaxınlaşdığını görəndə gülümsədi. Sonra diqqətini bir ata ilə qızı cəlb etdi. Ata, heç şübhəsiz, hərbçi idi, özü də əslində olduğundan daha sakit görünməyə çalışırdı. Onun yubandığını görən miss Vansittart qapının yanından aralanıb yeni şagirdin əlindən yapışdı.

– Mayor Xarqrivs? Bu, Alisadırmı? Gedək içəri, sizə onun otağını göstərim.

Anna yazısını davam etdirərək gülümsədi: xeyirxah, qoca Vansittart – gözəl müəllimə idi. Öz ədaları ilə Vulstrounu necə də bacarıqla təqlid edirdi! Mükəmməl şəkildə!

Nəhəng və yəqin ki, çox bahalı olan, moruğu və mavi səma rənginə boyanmış “Kadillak” mayor Alister Xarqrivsin köhnə “Ostin”inin arxasında dayandı.

Sürücü tələm-tələsik maşından çıxıb tutqun sifətli, saqqallı, dəvə yunundan paltar geyinmiş bir yekəpər üçün qapını açdı. Onun arxasınca da qədd-qamətli qarabəniz bir qız düşdü.

“Deyəsən, hansısa Şərq ölkəsindən gələn şahzadədir”, – Anna düşündü. Ekzotik görünüşlü əcnəbi qızın gəlişi onu şənləndirdi, lakin miss Vulstrouyla zarafat etmək olmazdı. O, çox vacib persona idi.

– Yəqin, bu qız şahzadə, hətta ola bilsin ki, kral ailəsindəndir, – o, növbəti məktubu qurtararaq ucadan səsləndi.

Anna iş stajı olan katibə idi. Əvvəllər neft şirkətinin dəqiq və ciddi rəhbərinin, sonra isə öz geniş biliyi, tünd-məcazlığı və dolaşıq xətti ilə məşhur olan ser Martin Todxanterin katibəsi olmuşdu. İki nazirin və görkəmli ictimai xadimin yanında işləmişdi. Həmişə də kişilərin arasında. İndi isə ilk dəfə idi ki, qadınlarla çalışırdı. Hamısı da Dennisə görə idi! Ah, sədaqətli Dennis! Heç vaxt dəyişməzdi, hə-

mişə eyni idi: hər dəfə Malayziyadan, Birmadan, Yer kürəsinin müxtəlif yerlərindən qayıdıb gələrkən ona evlənmək təklif edərdi. Əziz Dennis! Lakin… Dennisin arvadı olmaq darıxdırıcı səslənirdi.

Bəli, burada kişilərin yoxluğu çox hiss olunurdu. Pedaqoqlar yalnız qadınlar idi, xidmət heyəti də həmçinin. Bircə bağbandan başqa... Onun da, az qala, səksən yaşı olardı.

Lakin Annanı burada qəribə bir hadisə gözləyirdi. Pəncərədən boylanarkən onun gözləri qazonu biçən adama sataşdı. Bağban olduğu aydın idi, lakin səksən yaşlı biri deyildi. Gənc, boy-buxunlu… Çox da gözəl görünürdü. Özü də nəsə qəribə işləyirdi və kənd adamlarına qətiyyən oxşamırdı. Yeri gəlmişkən… Axı günəmuzd işləyənlər də olurdu. Çox güman ki, cavan oğlana dolanmaq üçün pul lazım olmuşdu. Amma diqqətlə baxanda onun hərəkətlərində işə vərdiş etmiş birinə xas olan əminlik var idi. Bəlkə, doğrudan da, təzə bağbandır?

“O, yan-yörəsinə yaman boylanır, – Anna düşündü, – elə bil gülməli görünməkdən qorxur…”

O daha bir məktub yazmalı idi. Ancaq bundan sonra bağda gəzib dolaşa bilərdi.

## 3

Təsərrüfat müdirəsi miss Conson şagirdləri otaqlara yerləşdirməklə məşğul idi. Yeni gələnlərlə tanış olur, köhnə şagirdləri mehribancasına salamlayırdı. O, yeni dərs ilinin başlanmasına şad idi. Miss Conson heç vaxt tətillərdə neyləyəcəyini bilməzdi. Ərdə olan iki bacısını dəfələrlə öz

evinə dəvət etmişdi, onlar isə heç cür "Midoubank"a gəlib çıxa bilmirdilər. Miss Consonun bacılarını səmimi qəlbdən sevməsinə baxmayaraq, sözün əsl mənasında, yalnız məktəbin maraqları ilə yaşayırdı.

Bəli, dərslərin başlaması gözəl idi!

– Miss Conson!

– Buyur, Pamela?

– Miss Conson, sizə bir məlumat vermək istəyirəm… Mənə elə gəlir ki, nəyisə sındırmışam, daha doğrusu, çamadanımda nəyisə… Deyəsən, axır… Məncə, saç üçün yağdır.

– Açıb baxsana tez, – miss Conson Pamelaya kömək etməyə tələsərək dilləndi.

## 4

İngilis dili və coğrafiya müəllimi miss Riç binanın qarşısında gəzərkən büdrədi və yıxıldı. Təəssüf ki o, tez-tez ayağının altına baxmağı unudur və çox vaxt harada olduğunun fərqinə varmırdı.

Onun saçları dağıldı, lakin miss Riç ovcunda sıxdığı bulkanı əlindən buraxmadı.

"Tez ol, geri qayıt! – o öz-özünə əmr etdi. – Deyəsən, burada qızılgül kolları var…"

Birdən hiss etdi ki, kimsə onu ayağa qaldırır və ayaq üstə dayanmasına kömək edir. Bu, gənc bağban idi:

– Möhkəm tutunun, miss.

– Minnətdaram, – miss Eylin Riç cavan oğlana baxmadan mızıldanaraq uzaqlaşdı.

Yeni fransız dili müəlliməsi madmazel Blanş tələsik addımlarla ot basmış çəmənlikdən keçirdi. O, bağ çəpərini təmir edən cavan oğlana maraqla baxdı.